# SOSİAL PROBLEMLƏR VƏ MƏNƏVİ TARAZLIQ

*(Əvvəli ötən saylarımızda)*

## "Yoxsulluq" poeması haqqında düşüncələr

Çoxlu gənclər var ki, ata-ana himayəsindən məhrum olandan sonra düzgün yaşamaq yolunu itirir. Onlar nəyin yaxşı, nəyin pis olduğu haqqında düşünə bilmirlər, başqa sözlə, həyatın rənglərini qarışdırırlar. Ancaq Zənurə belə deyil. Onun gözünü açanda gördüyü nənəsinin necə böyük zəhmətlə ona qayğı göstərməsi ilə müşayiət olunan həyatı özünə bir örnək olur. Bu həyatı yaşamaq, bu günü güzəranı görmək, bəlkə də bu barədə nəyisə başqasına danışmaq bir qədər reallıqdan kənar olardı. Amma Zənurə üçün bu həyatı öz gözləri ilə görmək, bu həyatı yaşamaq, özü də heç kimsədən qorxmadan, çəkinmədən, başqasının minnətini çəkmədən yaşamaq bu gənc qız üçün xüsusi qürur mənbəyidir. Ona görə də Zənurənin hərəkətlərində nə müşahidə olunursa, bütün bunların hamısı ağıllı bir gəncin həyat mənzərəsi kimi oxucunun yaddaşına həkk olunur.

Zənurə zəhmətkeş, həyatı yaşamağın sirlərini nənəsindən öyrənən bir gəncdir. O, çox bacarıqlıdır, yaxşı müaşhidə qabiliyyəti var. Nənəsindən xalça toxumağın sirlərini öyrənib. Bu sirləri haracan desən vaqif olub. Onun əlləri sanki edüşüncəsində işıq alır. Barmaqları ilmələr üzərində oynayır. Xanaları necə dəqiq, yerli-yerində görür. Bir sözlə, onun işlətdiyi saplar, iplər həyat rənglərinə çevrilərək xalça üzərində gözəl mənzərələr yaradır. Müəllifin bu düşüncələrindən sonra onun Zənurəni sənət sevdalısı kimi tərənnüm edən misraları oxucu üçün də maraqlıdır: *"Zənurənin çox idi Toxumağa həvəsilliyinə hopmuşduBu sənətin naşəsiKeçirdiyi hər ilmə,-Yaratdığı hər naxış kədərini unutdu.Hamı şirin yuxudaRahat uyuyan zamanBu sənətin sehrini Öyrəndi yorulmadan.-Barmaqlar oynayırdıO baş, bu baş xanadaSanki ruhu azmışdı Yağışlı fırtınadaİnsanın barmaqları Gör qadirmiş nələrə,Yumaq-yumaq sapları Çevirir ilmələrəYaratdığı mənzərəÇeşid-çeşid, növbə-növ. Sanki bir ömür kimi Eləsi var yarımçıq,Eləsi var tam, bütöv".* İndi kompüter əsridir, elektronika bir çox klassik sənətləri üstələyib. Bəlkə də Məlahət Soltanqızının Zənurənin istedadını, bacarığını göstərən ecazkar xalçaçılıqla bağlı düşüncələri bir qədər vaxtını keçirmiş kimi görünə bilər. Amma əslində belə deyil. Lap insan kompüter arxasında olsa da, kosmik sükan arxasına əyləşsə də, lap elə orta əsr xalça dəzgahının arxasında dayansa da, öz hissləri ilə, duyğuları ilə insandır. Bir sözlə, insanın hansı sənətdə olmağı yox, onun öz sənətinə hansı hiss ilə yanaşması onun kimliyini göstərən daha üstün keyfiyyətdir. Zənnimizcə, M.Soltanqızı bu əsərində Zənurə obrazı ilə pul qazanan qızdan çox halal zəhmətlə yaşamağı bacaran qızdan danışmağı üstün tutub. Bu cəhət Zənurənin kimliyini göstərən əsas faktordur. Və əslində həm də müəllifin həyat həqiqətlərinə münasibətlərini ifadə edir. Hər hansı bir ailənin sağlam özül üzərində bərqərar olunması üçün nəyin daha üstün olduğunu diqqətə çəkmək birinci daha vacib amil kimi diqqəti cəlb edir.

Murad da təqribən belə bir qızın kimliyini, onun nəyə qadir olduğunu, şəxsiyyət kimi varlığının dəyərini artıq bilməkdədir. Ona görə də o, getdikcə Zənurəyə daha çox bağlanır. Onu göründə müəllifin təbirincə desək, ürəyi atlanır. Müəllif bu məqamları xüsusi şirinliklə təqdim edir: *"Murad ayaq açmışdıBu ocağa, bu evə Ürəyi atlanırdı-Hər gələndə bu evəBu evi tanıyandan Bura ayaq basandan Bu qapını yaxın dost, Tanış kimi açsa da,Artıq səddi aşmışdı,Qızla yaxınlaşmışdı...".*

Beləliklə, biz Muradın artıq təşəbbüsdə olduğunu, onun Zənurəyə necə istəklə yaxınlaşdığını da müşahidə edirik. Ən başlıcası, Murad Zənurəyə yüngül hisslərlə yaxınlaşmır. Bu xüsusi sevgi hissidir, bunlar elə hisslərdir ki, Muradın istəyi ilə idarə olunmur. Bu istək, bu hiss Muradın varlığından qaynayıb gəlir. Əslində Muradı idarə edən bu hissin adı sevgidir.

Müəllif M.Soltanqızı poemada ali dərəcədə müqəddəs tutulası sevgi hisslərini tərənnüm edir. Əsil sevən, sevgi ilə yaşayan gənclərin obrazını yaratmağa çalışır. Əsərin ayrı-ayrı hissələri göstərir ki, müəllif bu istəyində kifayət qədər israrlıdır və ruhən mövzuya bağlı olduğu üçün həqiqi sevən gənclərin uğurlu sevgi obrazlarını yarada bilib.

Elm və texnika, indi də elektronika, sosial şəbəkə, virtual aləm cəmiyyətə, insanların varlığına daxil olduqca belə bir fikir daha çox səslənir ki, həqiqi sevgi hissləri arxa plana keçir. Bu əsərin təlqin etdiyi duyğular əsasında belə bir qənaətdə israrlıyıq ki, insan insanilik qanunlarına nə qədər uyğun olaraq yaşaya bilirsə, ali dərəcədə müqəddəs olan sevgi hissləri də onunla birgə yaşayacaq.

Sənətdə həyat hadisələrinin sevgi motivləri ilə yanaşı təsviri müəlliflə oxucu arasında xüsusi əlaqə yaradır. Axı sevgi hissləri əlahiddə bir duyğu olduğundan istər gənc olsun, istərsə də qoca, dəxli yoxdur, hər hansı bir şəxsdə təsiredici gücə çevrilir.

Sevginin həyəcanları, istəyin tərəddüdləri yazıçının hissiyyatları ilə qovuşaraq yaratdığı cazibədə özünü görən hər kəsi ruhən saflaşdırır, onu ucalığa səsləyir. Məlahət Soltanqızının poemasında da sevgi ilə müşayiət olunan həyat dramı insan hisslərinin poetik təsvirinə görə diqqəti cəlb edir. Əsərin gənc qəhrəmanları Muradla Zənurənin həyatı kifayət qədər reallıqla səsləşir. İki gənc bir-birinə çox bağlıdır. Hətta biri digərinin adını düşünəndə belə ürəyi sürətlə döyünür, nəbzinin ahəni dəyişir. Müəllif sevgi hisslərini xüsusi bir şövqlə yazıya gətirir. Gənclərin xarakter xüsusiyyətlərini, necə böyümələrini səmimiliklə misralara çevirir. Biz ürək döyüntüləri ilə öz sevgilisini düşünən Zənurənin saflığını, təmizliyini, ən başlıcası, sevgisində tərəddüdlərinə qalib gəlməsini razılıqla qarşılayırıq. Gənclərin taleyi necə olacaq? Onların arasındakı münasibət davamlı bir bağlılığa çevriləcəkmi? Və yaxud onlar ikisi birlikdə möhtəşəm ailə sarayını qurub başa çatdıra biləcəklərmi? Hələlik gənclərin tapınacaqları ailə həyatı qarşıdadır: *"Muradla tanışlığı Qatmışdı röyasını, Unutmuşdu elə bil O, yaslı dünyasını - anasız böyümüşdü, o Sevgisiz, sevincsiz böyümüşdü o, Adicə bir nəvaziş, Adicə bir şirin söz Başını döndərirdi. Əllərindən tutunca, Bədəni uçunurdu Səsindəki titrəyiş, Köksündəki çırpıntı Gözündəki qığılcım Ruhundakı ürpəriş İçindəki sevgidən Açıq xəbər versə də, Zənurə tək qalınca Öz gizli dünyasında Fikirlərə qapılıb Xəyallara dalınca Özünü qınayırdı Muradla yaxınlığı Bir dəlilik deyilmi? Bir neçə ay ötəcək Bətnindəki körpənin Varlığını duyanda Yerlə-göy arasında Çabalayıb dursa da Dizlərinə döysə də Saçlarını yolsa da Əli çatmaz bir yana Analıq duyğusuyla Çırpınırsa, bir ürək, Bətnindəki körpənin Hər nazını çəkəcək".* Göründüyü kimi Zənurə nə qədər öz sevgilisinə inansa da, onun qəlbində şübhələr də var. Axı o, qaynar sevgi hisslərinin gəlib ötdüyü vaxtdan sonra öz sevgisinə xəyanət edənləri də görüb. Bəlkə də onu çaşdıran, onu tərəddüdlər qarşısında qoyan həyatın bu acılıqları müşahidə etməsidir. Amma Zənurənin tərəddüdlərinə müəllif diqqəti yönəltsə də, onun gələcək zamanda bir ana olacağı təqdirdə yaşantılarını qabaqcadan təsəvvür etməsi, analıq məsuliyyətinin ağırlığı haqqında düşünməsi göstərir ki, o, övladını sevgilisinin adına layiq böyütməyi də düşünür və mənəvi cəhətdən bunu özünə borc bilir. Hər halda gənclər xüsusi bir hiss və duyğu ilə birbirinə tərəf gəlməkdədirlər. Bu münasibətlərin harada sona çatacağı, onların necə qovuşacaqları keçə biləcəkləri yolun aydınlığından çox asılıdır.

Hər yerdə olduğu kimi bu gənclərin saf sevgilərinə qarşı duran maneələr də tezliklə üzə çıxır. Ən başlıcası, Muradı istəklərinə uyğun böyüdən ana onun kasıb bir qızla evlənəcəyi xəbərini alanda çox güclü əsəb keçirir. Sanki oğluna qarşı qəddar bir mövqe tutur. Onun nəzərində oğlunun kasıb bir qızla evlənməsi elə oğlunun bədbəxtliyə düçar olmasına bərabərdir. Bütün bunlara baxmayaraq, Murad da kifayət qədər inadlıdır. Murad bütün gücü ilə çalışır ki, anası ilə münasibətləri yoluna qoya bilsin. Amma ana da öz inadından dönmək fikrində deyil. Ona görə də Murad quracağı ailəni necə saxlamağı, sevgilisi ilə birgə harada yaşayacağı haqqında da düşünür. Hələ üstəlik Zənurənin bətnində övladının olduğunu da anasına deyə bilmir. Bütün bunlar göstərir ki, hələ həyatın çətinliklərindən keçməmiş, bərkəboşa düşməmiş gənclərə mənəvi dayaq durmaq, hətta maddi kömək göstərmək nə qədər vacib olsa da, ana bütün bunları qəbul etmək istəmir: *"Övladını duyuncaMurad çaşıb qalsa da Özünü itirmədən Elə lapdan, qərəzsizAnasına söylədi: - Bir qızla evlənməyi Mən qərara almışam. Tək arzusu bu idiİndi bircə Muradın Ananı elçi salıb Bu elin adətincə Qız evin razı salıb, Xudmani bir toy çalıb,Gəlin gətirsin yarın. Ana bunu duyunca, Axşam-səhər deyindi, Oddan köynək geyindi. Dedi: - Dünya dağılsa Açmaram o qapını Arzularım qəlbimdə Daşa dönüb qalsa da, Kədər mənim köksümdə Öz köçünü salsa da,Yenə yaxın durmaram, Elə yoxsul qız üçün İnan ki, toy qurmaram. İllərlə gözləmişəmS ənin, oğul, toyunu Çəkmişəm hər nazını, Oxşamışam boyunu. İndi məndən xəbərsiz, Yad qapını açmısan, Nə qədər ki, gec deyil Oğul, qayıt bu yoldan. Ehtiyacın əlləri Qapına kilid vurar, Yoxsulluq sənin üçün Qəmli bir aləm qurar. Murad dözə bilmədi Bu acı tənələrə Körpəsinin varlığınAnasından gizlədi. Utancaqlıq və həya Cəsarətin üstlədi. Qırılmışdı qanadı, Sarsılmışdı büsbütün Anasından ayrılıb, Köç çəksə yad yuvaya Nə üzlə qayıdardı Bu elə, bu obaya, Ana xeyir duası Ana nəvazişiylə Çəkib getsə bu evdən Əyilməzdi bu qədər. Kirayə bir ev tutub Çəkib gətirsə yarın, Könül rahatlığıyla Sürərdi öz dövranın".* Belə vəziyyətdə Zənurənin halı daha faciənə görünür. Çünki nikahdan kənar uşağın doğulacağı fikri cəmiyyət arasında yaxşı qarşılanmır. Belə vəziyyətdə Zənurə də, onun qardaşı da, nənəsi də camaat içərisinə çıxmağa belə utanacaqlar. Ən başlıcası, Zənurənin nənəsinin yaşadığı hissləri düşünmək, onu başa düşmək daha dəhşətlidir. Muraddan hamilə olan Zənurənin halını görəndə o için-için ağlayır. Əlbəttə, belə vəziyyətdə nənədə qisasçılıq hissi də oyanır. O, Muradı cinayətkar hesab edir. Hətta əlinə düşsə onu parçalamağa belə hazırdır.

Muradın da vəziyyəti yaxşı deyil. Onun qarşısına kasıb bir qızla evlənməməsi üçün səd çəkiblər. Murad da tərəddüdlər içindədir. Vəziyyətdən necə çıxacağını, daha doğrusu çıxış yolunu bilmir. Hələ üstəlik Zənurəni sonsuz bir məhəbbətlə sevdiyi üçün ondan da kənarda qalmaq istəmir. Ona qovuşmaq üçün bütn gücü ilə çarpışır. Tale bu gəncləri, demək olar ki, ən güclü sınaqlar qarşısında qoyur. Əlbəttə, Zənurənin nənəsi uşağı tələf etmək haqqında da düşünür. Ancaq bunu heç nə ilə əvəz olunmayan günah hesab edir və bu günahı kimsənin daşıya biləcəyinə də inanmır. Demək, Zənurə və onun ailəsi bütün el içində hədsiz dərəcədə sınıq bir həyat yaşamağa məhkum olacaq. Hadisələrin bundan sonrakı inkişafı Muraddan daha çox asılıdır. İndi Muradın öz hünərini, cəsarətini səfərbər edə bilməsindən asılıdır Zənurənin taleyi.

Ötən vaxt, keçən zaman iztirablarla müaşyiət olunur. Zənurə son dərəcə ağır, gərgin stress altında yaşayır. Hələ üstəlik nənəsi də iztirablar əlində çırpınır. O da yaxşı bilir ki, əgər bu məsələ camaat içərisində açılarsa, onda bu ailənin taleyi tamam bir qaranlıq içərisində qalacaq. Bütün bunların hamısında əsas günahkarı tapmaq, ittihamları ona doğru yönəltmək oxucunun ixtiyarına buraxılır. Oxucuya aydın olur ki, bu iki gəncin evlənməsi üçün əsas maneə Zənurəgilin kasıblığı, yoxsulluğudur. Demək, müəllif cəmiyyətdə əsas problemlərdən birinin də sosial-iqtisadi vəziyyətlə bağlı olduğuna diqqət çəkir. Halbuki sağlam düşüncə ilə bu gənclərin evlənməsinə heç bir maneə olmamalı idi. Müəllif özü də hadisələrin inkişafını iztirablı düşüncələrlə təsvir edir. Demək olar ki, yolları çox ağır keçir. Sanki özü də gənclərin dərdli həyatına qovuşaraq onların hisslərini öz daxili aləmində yaşayır: *"Bir neçə ay ötüşdü. Zənurənin halından Nənəsi duyuq düşdü. Özün verib xəlvətə Ağladı için-için Tanrı bunca zülümlərAxı nədən, nə üçün? Axşam-səhər dəli kimi Özözüylə danışdı. Tanrının bu acısıyla Gah küsdü, gah barışdı. Üz tutsaydı hakiməMəhv etsəydi uşağı Daşıya bilərdimi Belə ağır günahı. Elə bu an, bu zaman Murad düşsə əlinə Didib parçalayardı Onun dəlicəsinə Qardaşı duyuq düşsə Zənurənin halından Qurtarmazdı heç biri Onun qalmaqalından.Dərdini kimə desin? Kimdən kömək diləsin? Bu çarəsiz halıylaYatağına uzandı...".* Yoxsulluğun insan həyatı üçün maddi çətinlikləri var. Ancaq insanları mənəvi cəhətdən şikəst edən əsas amil yoxsulluğun aşağı tutulmasıdır. Yoxsullara ikinci dərəcəli insan kimi baxılmasıdır.

Muradla Zənurənin həyatının iztirablarla müşayiət olunması bu ailələrin yoxsulluğa olan münasibət fərqi ilə bağlıdır. Belə çıxır ki, gərək rahat həyatı tənzimləmək üçün birinci şərt olaraq maddi təminatı əsas götürəsən.

Halbuki insanların taleyi üçün maddi yoxsulluq yox, mənəvi yoxsulluq problemdir. Məlahət Soltanqızı məhz bu həqiqəti demək istəyir.

***(Davamı var)***